**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№353/2** **08 fevral 2023-cü il**

**Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri barədə**

Auditor fəaliyyətində haqsız rəqabətin aradan qaldırılması və səmərəliliyin yüksəldilməsi, göstərilən auditor xidmətlərinin keyfiyyətinin artırılması, dempinq hallarının aradan qaldırılması, auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması və auditorların fəaliyyətinin ilkin təməl prinsiplərinin müəyyən edilməsi məqsədilə Auditorlar Palatasının Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) tərəfindən Palata Şurasının 2022-ci il 29 dekabr tarixli 352/1 nömrəli qərarına əsasən sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun, Maliyyə və texniki təminat idarəsinin rəisi V.Rəhimovun rəyləri nəzərə alınmaqla yenidən işlənib hazırlanmış “Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri”nin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri” təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının üzvlərinə tapşırılsın ki, “Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri”nin tələblərinə ciddi riayət etsinlər.
3. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, “Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri”nin tələblərinə Palatanın üzvləri tərəfindən riayət edilməsinə mütəmadi olaraq nəzarət etsin və nəticəsi barədə rübdə bir dəfə Palatanın rəhbərliyinə hesabat təqdim etsin.
4. Haqsız rəqabətə qarşı mübarizə idarəsinə (R.Cəfərli) tapşırılsın ki, üç gün müddətində “Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri”nin Auditorlar Palatasının üzvlərinə çatdırılması təmin edilsin.
5. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətin idarə edilməsi idarəsinin rəisi Q.Əhmədova tapşırılsın ki, bir həftə müddətində bu qərarın və “Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri”nin mətnlərinin Palatanın internet səhifəsində və “Auditorun şəxsi kabineti” sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**